# DİZAYN HƏFTƏSİNİN REQLAMENTİ

## 1. Ümumi müddəalar

1.1. Bu Reqlament Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Dizayn fakültəsində hər il keçirilən Dizayn həftəsinin məqsəd, vəzifə və təşkilati qaydalarını müəyyən edir.
1.2. Dizayn həftəsi AzMİU-nun təşəbbüsü ilə təşkil olunur və Azərbaycandakı bütün dizayn ixtisası üzrə təhsil alan tələbə və mütəxəssisləri bir araya gətirir.
1.3. Dizayn həftəsi dizayn sahəsində ideya mübadiləsi, yaradıcılıq nümunələrinin təqdimatı və aktual tendensiyaların müzakirəsi üçün açıq mədəni və tədris platformasıdır.

## 2. Məqsəd və vəzifələr

2.1. Dizayn həftəsinin əsas məqsədi – Azərbaycanın dizayn ictimaiyyətini bir platformada birləşdirməkdir.
2.2. Hədəflər:

- tələbə və peşəkar dizayner işlərinin sərgisinin təşkili;
- ali təhsil müəssisələri, müəllimlər və tələbələr arasında əməkdaşlığın inkişafı;
- açıq görüşlər, mühazirələr və panel müzakirələrin keçirilməsi;
- dizayner peşəsinin təbliği və gənc istedadların dəstəklənməsi;
- bu sahədə fəaliyyət göstərən aparıcı qurum, firma, müəssisə və tanınmış şəxslərlə əlaqələrin yaradılması;
- tələbə işlərindən ibarət xeyriyyə hərracının təşkili və əldə olunan vəsaitin uşaq evlərinə yönəldilməsi.

## 3. Keçirilmə müddəti və strukturu

3.1. Dizayn həftəsi hər il aprel ayının son həftəsində keçirilir (dəqiq tarixdən asılı olmayaraq).
3.2. Dizayn həftəsi ardıcıl olaraq 5 gün keçirilir.
3.3. Həftənin hər günü müəyyən yaradıcılıq istiqamətinə həsr olunur:

- 1-ci gün (bazar ertəsi) – açılış və sərgilər;
- 2-ci gün (çərşənbə axşamı) – görüşlər, ustad dərsləri və mühazirələr;
- 3-cü gün (çərşənbə) – AzMİU Dizayn fakültəsində açıq qapı günü;
- 4-cü gün (cümə axşamı) – panel müzakirələr və dəyirmi masalar;
- 5-ci gün (cümə) – tələbə işlərindən ibarət xeyriyyə hərracı.

*Qeyd edilən ardıcıllıq təşkilat komitəsinin təkliflərinin əsasında dəyişdirilə və ehtiyyac olarsa yeni istiqamət əlavə edilə bilər.

## 4. Təşkilat komitəsi

4.1. Təşkilat komitəsinin tərkibinə dekan, kafedra müdirləri, müəllim (maks. 2 nəfər) və tələbə (maks. 2 nəfər) daxildir.
4.2. Dizayn həftəsi ilə bağlı bütün qərarlar Təşkilat komitəsinin bütün üzvlərinin təsdiqi ilə alınır.

4.3. Dizayn həftəsində könüllü kimi yalnız dizayn ixtisasında təhsil alan tələbələr iştirak edə bilərlər.

## 5. Təşkilat və iştirak

5.1. İştirak üçün Azərbaycandakı bütün ali təhsil müəssisələrinin dizayn ixtisası üzrə tələbə və müəllimləri dəvət olunur.
5.2. Hər bir universitet öz işlərini təşkilat komitəsinin təsdiqlədiyi qaydalara uyğun təqdim edir.
5.3. Hərraca çıxarılan işlər orijinal olmalı və etik normalara cavab verməlidir.

## 6. Simvolika və vizual üslub

6.1. Dizayn həftəsinin loqosu dəyişməzdir və tədbirin əsas simvolu hesab olunur.
6.2. Hər il loqotipin yalnız rəng çaları dəyişdirilə bilər, bu da ilin mövzusuna uyğun seçilir.
6.3. Həftənin hər gününün öz rəngi olur (məsələn: bazar ertəsi – qırmızı, çərşənbə axşamı – sarı, çərşənbə – yaşıl və s.).
6.4. Tədbirin bütün vizual materialları (afişalar, sertifikatlar, bannerlər və s.) vahid dizayn tərzində hazırlanır.

## 7. Xeyriyyə fəaliyyəti

7.1. Dizayn həftəsinin yekun mərhələsi tələbə işlərindən ibarət xeyriyyə hərracıdır.
7.2. Hərracdan əldə edilən bütün vəsaitlər Azərbaycandakı uşaq evlərinə və sığınacaqlara yönəldilir.
7.3. Hərracın nəticələri və toplanmış vəsaitin bölgüsü haqqında hesabat tədbirin rəsmi platformalarında paylaşılır.

## 8. Əlavə müddəalar

8.1. Hər il Dizayn həftəsi müəyyən mövzu və ya şüar altında keçirilə bilər (məsələn: "Dizayn birləşdirir", "Forma və məna" və s.).
8.2. Tədbirin sonunda ən yaxşı tələbə işlərindən ibarət elektron kataloq hazırlanır.
8.3. Təşkilat komitəsi reqlamentin prinsiplərinə zidd olmamaq şərti ilə proqramda dəyişikliklər edə bilər.
8.4. Tədbirin sonunda iştirakçılara və könüllülərə sertifikatlar təqdim olunur.